UOT 321. 01; 340. 11:1
https://doi.org/10.59849/2710-0820.2024.1.247

**Əntiqə Paşayeva**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun*
*"Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi"*
*şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent.*
*pashayeva.ph@mail.ru*

# ETİKA VƏ HÜQUQ: HÜQUQİ MƏNBƏLƏRDƏ ADƏT-ƏNƏNƏNİN ETİK FUNKSİYASINA FƏLSƏFİ VƏ HÜQUQİ BAXIŞ

**Giriş.** Adət-ənənənin necə və nə zaman yaranması filosofların və hüquqşünas filosofların bəhs etdiyi əsas mövzudur. Adət-ənənə qanunverici orqan tərəfindən yaranmamış, zaman keçdikcə formalaşmışdır, yəni sonradan zühur edən bir fenomen deyil, əksinə, hüquq elmləri və adət-ənənə arasında çox qədim zamanlardan bağlılıq mövcuddur; məhz buna görə də iddia etmək olar ki, adət-ənənə hüququn ən qədim fenomeni olaraq hüquq elminin həm təzahürü, həm də müdafiəçisi kimi tanınır. Tarix baxımından nəzər salsaq görərik ki, tarixi mənbələrdə adət-ənənə hüququn ilk mənbəyi olmuşdur. Adət-ənənələr tədricən toplanılmış, qanunlarda və məhkəmə qərarlarında sistemləşmişdir; bununla belə, hətta qanuni quruluşlarda və məhkəmə sistemində də mövcud olmuşdur. Elə buna görə də bəzən suallar yaranır: hüquqi mənbələrdə adət-ənənənin funksiyası dedikdə hansı müddəalar nəzərdə tutulur? Adət-ənənə hüququn və hüquqi qaydaların yaranma mənbəyi ola bilərmi? Digər mühüm bir sual da bundan ibarətdir ki, vətəndaş hüququnda adət-ənənənin rolu nədən ibarətdir? Filosof və hüquqşünas filosoflar hüquqi mənbələrdə adət-ənənənin xüsusi rolu olduğunu yazmışlar. Onların nəzərində hüquqi qaydanın yaranma mənşəyi olan hər hansı bir qüvvə hüquqi mənbə adlanır; hüquqi sistemlərin əksəriyyətində adət-ənənə hüquqi qaydaların yaranma mənbəyi hesab olunur. Hazırkı tədqiqatda hüquqi mənbələrdə adət-ənənənin funksiyasını daha dərindən bilmək üçün tədqiq olan mövzulara diqqət etmək zəruridir.

**Tədqiqatın hədəfi.** Adət-ənənə ilə bağlı mühüm məsələlər mövcuddur ki, bunların araşdırılması bir sıra suallara cavab verir. Adət-ənənə bir nəsildən digər bir nəslə ötürülən adi bir davaranış deyil, bəlkə hüquq sistemində funksiya daşıyıcısıdır. Buna görə də hazırkı mövzuda adət-ənənə dedikdə, insanlar arasında yayılmış müxtəlif adət və vərdişlərdən söhbət getmir, burada məhkəmə sistemində və qanunvericilkdə qanuni funksaya daşıyan etik bir qüvvə nəzərdə tutulur. Hazırkı dövrdə aktual hesab olunan belə bir mövzunun araşdırılması təkcə fəlsəfə və hüquq sahələri üçün deyil, həm də cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edir.

**Mövzunun tədqiqi və təhlili.** Qeyd etmək lazımdır ki, qanunların yaranması xüsusi bir dövrə təsadüf edir. Bu, elə bir dövrdür ki, həmin dövrdə dövlət və hökumət qurumları yaranmışdır. İnsan kütləsindən ibarət olan cəmiyyətlər bütün hallarda və hər yerdə hüquq və qanunla birlikdə olmuş, ona riayət etmişlər. Nəzərə almaq lazımdır ki, qanunverici orqan yaranmazdan əvvəl hüquq mövcud olmuşdur, lakin qanunverici orqan hüquq normalarını təyin etməzdən əvvəl insanlar arasında adət-ənənə formasında özünü göstərmişdir. İbtidai və sadə insanlar arasında olan ictimai münasibətlər təbii ki, adət-ənənə olmadan mövcud ola bilməzdi. Çünki bir tərəfdən insan təbiəti mahiyyət etibarilə adətləri qəbul edir və ona tərəf gedir, yəni insan təbiəti elə yaranmışdır ki, bir dəfə etdiyini təkrarlamağa meylli olur və bunu ezoterik (ezoterika: özünü kəşf etmək, həyatın mahiyyətini yaxından dərk etmək; ezoterika, insanın gizli imkanlarını və kainatın sirlərini dərk etməyin bir yoludur; internet resursu) istəklərinə və tələblərinə uyğun hesab edir; digər tərəfdən isə o dövrdə yazmağı tələb etməyən vəziyyət istisna olmaqla, insanların hüququnu tənzimləyən başqa bir vasitə yox idi. Buna görə də insanların ictimai yaşayış tarixinə, yəni daha uzaq dövrlərə nəzər salsaq, bunları köklü şəkildə mütaliə

edib araşdırsaq, adət-ənənəyə uyğun formada təzahür edən güclü və sabit ailə sisteminin şahidi olacağıq.

Etika və hüquq baxımından adət-ənənəni fəlsəfi və hüquqi aspektdə araşdırarkən mühüm məsələlərlə qarşılaşırıq. Bəzi müəlliflərin gəldiyi nəticə də məhz buna işarə edir. Onlar adəti hüquq normaları ilə əlaqələndirərək Misir qanunvericiyilində mövcudluğunu bildirmişlər: "hüququn qədim mənbəyi adət hüquq normaları olub və sonralar zəruri olan bu normalar Misir qanunvericilinyində təsbit olunmuşdur. Bu normaların bəziləri sonrakı dövrlərdə də saxlanıldı" (12. s. 26). Hazırkı dövrümüzdə də olduğu kimi dünyanın müxtəlif yerlərində mövcud olan ibtidai cəmiyyətlərin həyat sistemi adət-ənənə ilə bağlıdır. Bu, əsrlər boyu mükəmməl həyat yolu keçən, indi ən yüksək sivilizasiyada yaşayan ilk mədəni etnik xalqların dövrünə işarədir. Hətta hüquqşünas filosoflar hüququn yaranmasında və formalaşmasında adət-ənənənin hədsiz təsiri olduğunu yazırlar: "hüquq daha çox adətlə, yəni müəyyən bir işin ortaya çıxmasında, daim xüsusi bir qaydaya riayət olunmasında, həmçinin adət halına gəlməsinə vərdiş etməklə formalaşır. Həmin müəyyən olunmuş qaydalar tədricən insanların zehnində daim və təkrar olaraq xüsusi təsir qoyur ki, bu, hüquq qaydaların əsası (kökü) hesab olunur" (7. s. 279). Hüquq baxımından adət-ənənə yazılmamış qaydalardır ki, ümumi, xüsusi, daimi və müstəqil olaraq insanların iradəsindən doğur və bunun yaranmasında dövlətin heç bir fəaliyyəti və rolu mövcud deyil, lakin məhkəmələrdə icra olunması üçün hökumət tərəfindən rəsmi şəkildə tanınmalıdır (10. s. 85). İnsanların iradəsindən yaranan adət-ənənə Monteskyunun düşüncəsində də özünü göstərir. O, adət-ənənənin yaranmasını ictimai kütlə ilə əlaqələndirir : "konstitusiyanın təməlini qanunverici orqan qoyur, ancaq adət-ənənəyə gəldikdə isə bunun təməli geniş ictimaiyyət tərəfindən qoyulur" (21. s. 14). Digər mənbələrin yazdığına görə isə adət-ənənə bir çox hallarda hüquqi mənbələrdən irəlidə olmuşdur. Qədim mənbə və qanunlarda, o cümlədən Hammurapi qanunlarında, Yəhudilikdə, Maniheizmdə, qədim Hindistan və Afina qanunlarında bunu görmək mümkündür (5. s. 99). Bundan əlavə, bəzi hüquqi sistemlərdə məsələn, Anqlosakslarda (ing: Anglo-Saxons) qanundan əvvəl adət-ənənə hüququn ilk və əsas mənbəyi hesab olunur. Amma yazılı hüquq sistemi olan ölkələrdə isə adət-ənənə qanundan sonra gəlir, yəni ikinci dərəcəli mənbə hesab olunur. Ustad Nasir Katuzyanın fikrincə, hazırkı dövrümüzdə qanunlar adət-ənənəyə əsasən toplanılmışdır (19. s. 471).

Hüquqi mənbələrdə adət-ənənənin etik funksiyasına gəlincə, hüquqşünas filosoflar adət-ənənəni hüququn, qanunun, məhkəmə prosesinin həmçinin hüquqi doktrinanın kənarında hüququn mənbələrindən biri hesab edirlər. Belə olan halda adət-ənənənin vətəndaş haqlarında da təsirini görmək mümkündür, çünki vətəndaş haqları vətəndaşlıq anlayışının həyata keçirilməsinin bir funksiyasıdır. Adət-ənənələr həm etik, həm də qanunların təsdiq edilməsi ilə vətəndaş haqlarının rəsmi şəkildə tanınmasının əsas mənbələrindən biri hesab olunur. Nəzərə almaq lazımdır ki, vətəndaş haqları dövlət tərəfindən yaradılmır, bəlkə dövlət bu hüquqa riayət etməli və onu qorumalıdır. Qanunlar, xüsusilə konstitusiya (vətəndaş hüququnun qorunması) ümumi qaydaları ehtiva edir və bu qanunlar adət-ənənədən qaynaqlanır (4. s. 96). Adət və ənənənin vətəndaş hüququnda təsirindən bəhs edərkən bunu da demək lazımdır ki, adətlər-ənənələr zaman keçdikcə tədricən ictimai dəyərlərə çevrildi və hətta insanlar arasında ictimai dəyərlərin formalaşmasına səbəb oldu. İnsan həyatı üçün zəruri olan məsələlərin dəyişməsi və inkişafı (insanların yaşayış səviyyəsi, tərzi, mədəni inkişafı, irəliləyişi, yeni fikirlərin yaranması və digər məsələlər) müxtəlif məsələlərdə, o cümlədən vətəndaş hüququnda da özünü göstərir. Mövzu ilə bağlı məsələlərə və yuxarıda qeyd olunan suallara daha ətraflı cavab vermək üçün ilk olaraq adət-ənənə sözlərinin lüğətdə və mövzuda işlənmə mənalarına diqqət etməliyik.

## Adət-ənənə: lüğətdə və mövzuda işlənmə mənası

Adət (ing: custom, common; frans: coutume; ənənə, ing: customs) ərəb sözü olaraq lüğətdə "mərifət", "yaxşı", "yaxşılıq", "öyrənmiş", "adət etmiş", "həmsöhbət", həmçinin "qayda" və "tanınmış" mənaları bildirir (6. s. 136). Digər mənası isə "məlumatlı olmaq", "bilik" və insanlar arasında daha çox yayılan və ümumi olan müəyyən bir şeyə deyilir. Mövzuda

işlənmə mənasına (istilah) gəldikdə isə İbn Nəcimin tərifinə görə adət-ənənə ruhla bağlı olan və daim təkrarlanan bir məfhumdur (9. s. 37). Digər tərifdə isə adət-ənənə insanların söylədiyi və ya etdiyi ümumi vərdişlərdir (16. s. 838). Adət-ənənə kütlə arasında həm əməldə (təcrübədə), həm də sözdə yayılan və daim izlənilən vərdişlərə deyilir (13. s. 1000). Adət-ənənə insanlar arasında yayılmış bir fenomendir; insanların cəmiyyətdə yaxşı və pis, xoşagəlməz, zərərli, cəmiyyət üçün ümumi olan praktik, bəzən danışma üsuludur (14. s. 50). Adət-ənənə dedikdə, əgər insan bir əməli (və ya davranışı) davamlı, müntəzəm və fasiləsiz olaraq təkrar edərsə, bu əməl onun üçün "vərdiş" halını alır və buna görə də onu yerinə yetirmək asanlaşır, amma tərk olunması da çətinlik yaradır və belə bir vərdişə "fərdi adət" deyilir. Cəmiyyətin digər üzvləri də eyni hərəkəti təkrar etdikləri üçün bu, ictimaiyyətdə ümumi adət (ing: usage – istifadə, işlətmə) halını alır.

**Hüquqşünas filosofların nəzərində adət-ənənənin ictimai prinsipləri**

Hüquqşünas filosofların fikrincə, adət-ənənənin kökləri qədim dövrə aiddir. Məhz buna görə də qədim Roma imperatoru *Yuliandan* (az.Yulian, Flavius Klavdius; Latin: Flavius Claudius Julianus; Greek: Ἰουλιανός Iulianos 331-363) nəql olunur: "adət-ənənə hüquqla bağlı olan çox qədim bir sözdür ki, insanların istək və tələblərindən irəli gəlir, qanuni güc və təsirə malikdir" (15. c. 1, s. s. 21). Adət-ənənə qədim dövrdən bəri insanlar və ya toplu arasında tədricən, bəzən də öz-özünə məcburi bir qayda olaraq göstərilir (18. s. 188). Göründüyü kimi hüquqi mətnlərdə adət-ənənə ictimaiyyətlə bağlı olan və ondan qaynaqlanan mühüm bir qayda olaraq tərif olunur. Hüquqşünasların fikrincə, adət-ənənəni qanunverici orqanın müdaxiləsi olmadan qanuni bir qayda hesab etmək olar; adət-ənənə hətta qayda və qanundan başqa, məhkəmə proseduru və hüquqşünas alimlərin fikirlərindən irəli gələn qaydalarla yanaşı hüququn digər mənbələrini də əhatə edir (18. s. 187-188). Bundan əlavə, qanun ictimai təhlükəsizliyi təmin etmək və qorumaq üçün adət-ənənəyə diqqət və riayət olunmasını vacib hesab edir və ona qarşı olan hər hansı bir itaətsizliyi ictimai nizam-intizamın və etik normaların pozulması səbəbi kimi dəyərləndirir (15. c. 1. s. 86).

Adət-ənənə ilə bağlı yuxarıda qeyd olunan məsələlər təbii ki, "daxili hüquq"la əlaqədardır, ancaq beynəlxalq ümumi hüquqda adət-ənənə fərqli şəkildə təqdim olunur. Burada adət-ənənələr dövlətlərin fəaliyyət və davranış tərzinə uyğun olaraq tərəflər arasında münasibətlərin qurulmasından, genişləməsindən həmçinin gedən proseslər əsnasında münaqişə və mübahisələrdən yaranır. Beynəlxalq münasibətlərdə dövlətlərin təkrarlanan fəaliyyəti nəticəsində qaydalara inam və etiqad yaranır ki, bu da tədricən onların müştərək əlaqələrində məcburi hesab olunur və mövcud dəyərlərin ölçü meyarı olaraq qəbul edilir. Müəllif də təsdiq edir ki, bu meyarlar beynəlxalq ümumi hüquq qaydalarının əsas prinsipləri hesab olunur (17. s. 174-175). Buna görə də Beynəlxalq Ədalət Məhkəməsinin Əsasnaməsinin 38-ci maddəsinin 2-ci bəndinə əsasən adət-ənənə hüquqi qayda olaraq dövlətlərin ümumi təcrübəsi kimi qəbul edilmişdir. Bu münasibətlər iki ölkənin razılığı əsasında qlobal, regional və ikitərəfli ola bilər (11. s. 43). Adət-ənənə beynəlxalq ümumi hüququn ilk mənbəyidir ki, beynəlxalq mübahisələrin həllində məhkəmə qərarlarının əsasını təşkil edir. Məhz buna görə də məhkəmə proseduru və adət-ənənə arasındakı əlaqəyə təkcə hüquqi deyil, həm də fəlsəfi nəzər salsaq faydalı olar.

***Məhkəmə proseduru və adət-ənənə arasındakı əlaqəyə fəlsəfi və hüquqi yanaşma:*** Qeyd olunduğu kimi adət-ənənə hüquqi mətnlərdə zəruri bir məfhum olaraq tərif olunur. Nəzərə almalıyıq ki, adət-ənənənin yaranması qanunvericilikdən asılı deyil, yəni qanunverici orqan olmasa belə adət-ənənə mövcuddur. Bu, müstəqil şəkildə hüquqi qayda olaraq insanlar arasında zaman keçdikcə formalaşmış və onun icrası zəruri hesab olunmuşdur. Bəzən belə mülahizə olunur ki, məhkəmə proseduru və adət-ənənə hüququn mənbəyi olaraq zaman əsnasında yaranır və hər ikisi (məhkəmə proseduru və adət-ənənə) sistemləşmiş hüquqda qanuni müdafiəyə ehtiyacı vardır. Çünki qanun məhkəmə prosesini dayandırma, ləğv etmə və hətta adət-ənənəyə mənsub olan öhdəçiliyi xaric etmək səlahiyyətinə malikdir. Filosofların və hüquqşünas filosofların fikrincə isə hüququn mənbəyi iki hissəyə bölünür: qanun və adət-ənənə. Bura-

da adət-ənənə qanundan başqa hüququn bütün mənbələrinə şamil olunur və nəticədə məhkəmə prosedurunun bir hissəsi hesab edilir. Necə ki, adət-ənənələr insanlar tərəfindən yaranır və bir sıra öhdəçiliyə sahib olur. Məhkəmə prosedurunu da hökm, qərar, fikir və əqidə yaradır. Həqiqətən məhkəmə prosedudru hökmün, qərarın, fikir və əqidənin adət-ənənəsi – bir növ qaydası hesab olunur (çünki adət bir çox hallarda qayda olaraq tərif olunur ki, yuxarıda buna işarə olunub). Amma bəzi mənbələrdə bunların arasında (məhkəmə proseduru və adət-ənənə) ciddi fərqin olduğu bildirilir, hətta məhkəmə prosedurunun adət-ənənə çərçivəsində olmaması iddia olunaraq, sadəcə qanunların yaranmasında təməl kimi göstərilir. Müəllifin gəldiyi nəticə bundan ibarətdir ki, məhkəmə proseduruna, adət-ənənənin mahiyyətinə nəzər salsaq bunların mənşə baxımından fərqli olduğunun şahidi olacağıq. Bu iki məfhum arasında bütün oxşarlıqlara baxmayaraq, məhkəmə prosedurunu adət-ənənə daxilində müəyyən etmək olmaz. Çünki məhkəmənin gəldiyi nəticədə irəli sürülən hökm və qərarlarda qanundan, adət-ənənədən istifadə olunur, təbii ki, ən kiçik detallarına qədər izah olunur, müəyyən qərarlar verilir, amma çıxarılan hökm və qərarların hamısı uzun illər ərzində məhkəmə prosedurunun təsiri nəticəsində əldə olunur (3. s. 8-9). Təbii ki, bu müəllifin gəldiyi nəticədir, amma bizim yanaşmamıza əsasən, məhkəmə prosesi çıxarılan qərarların elmi əsaslara istinad etməyinin səmərəsidir, sabit və dəyişməyən qərarlar qəbul etmək üçün qanundan istifadə olunur. Məhkəmə proseduru, adət-ənənə hər ikisi qanunların yaranması üçün zəmin yaradır, yəni qanunların yaranmasında təməl və bünövrədir. Hətta bəzi qanunlar əvvəlki məhkəmə proseduru, adət-ənənədir ki, qanunverici orqan onu zaman ərzində hazırlayır və müəyyən qaydaya salır. Əlbəttə, unutmaq olmaz ki, həm məhkəmə proseduru, həm də adət-ənənə əxlaq normaları əsasında tənzimlənir. Burada adət-ənənəyə və əxlaq normaları arasında olan nisbətə, fərqli aspektlərə diqqəti yönəltmək faydalı olardı.

***Adət-ənənə və əxlaqın nisbəti və fərqli aspektləri:*** Adət-ənənə və əxlaq normaları arasında olan nisbəti və fərqli aspektləri təhlil edərkən qeyd etmək lazımdır ki, adət-ənənə şəraitə və mühitə uyğun olaraq dəyişir. Çünki müxtəlif zamanlarda, həmin zamanın tələbləri əsasında yaranır, bəzən aradan gedir, bəzən isə yenilənir. Təbii ki, adət-ənənənin funksiyalarını normativlərdə görmək mümkündür və bu normativ mənbələrin sayı ilə bağlı fərqli baxışlar var; altı növ normativ mənbəni sadalamaq olar: əxlaq, hüquq, adət-ənənə, din və məzhəb, uyğunluq və estetika. Diqqət etsək görərik ki, hər bir işdə “gərək” deyilən bir məfhum mövcuddur və bu “gərək” həmin altı mənbədən qaynaqlanır; məsələn, əgər hər hansı bir məclisə dəvət olunuruqsa içimizdə “gərək”lə bağlı fikirlər yaranır: “mən məclisdə olarkən özümü təvazökar aparmalıyam” və ya “mən gərək bu mövzu barədə qətiyyətli fikir söyləyim”. Çünki danışmaq niyyətində olduğumuz zaman “gərək” hissi içimizdə yaranır: “gərək düz danışım”, “gərək ədalətli olum” deyə öz-özümüzə xitab edirik. Bu cür hiss və duyğuların mənşəyi normativ mənbə olan əxlaqdadır. Normativ mənbənin üçüncüsü olan adət-ənənədə də bu “gərək”lər mövcudur; məsələn, inanclarla bağlı olan hər hansı bir adəti yerinə yetirmək və yerinə yetirməmək. Nəzərə almaq lazımdır ki, adət-ənənədə mövcud olan “gərək” hissi əxlaq, hüquq, qanun və din deyil, bəlkə hər bir insanın daxilindən gələn təbii istək və ehtiyaclarıdır ki, özünə xas formada yerinə yetirilir. Adət-ənənədə mövcud olan “gərək”lər baxmayarq ki, əxlaq deyil, ancaq qəbul olunan davranışlar, yəni insanlar arasında olan ortaq dəyərlər və qarşılıqlı, mənəvi öhdəliklər əxlaq normalarını əks etdirir. İslam aləminin böyük filosofu Məhəmmədhüseyn Əllamə Təbatəbainin də dediyi kimi: “adət-ənənə müdrik insanlar arasında olan ortaq dəyərlər (ənənələr) və gözəl davranışlardır” (20. c. 8, s. 397).

Adət-ənənə və əxlaq arasında nisbətin olmasına baxmayaraq bəzən fərqli cəhətlərin də şahidi oluruq: əgər cəmiyyətdə adət-ənənə ilə bağlı olan hər hansı bir sosial adət və dəyərlər dəyişirsə, həmin cəmiyyətdə heç bir problem yaranmaz, ancaq əxlaqla bağlı olan xüsusiyyətlərdə dəyişiklik etmək olmaz. Sosial adət və dəyərlər şərait və mühitlə bağlıdır, bunların dəyişikliyi də təbiidir, lakin əxlaq meyarları isə şərait və zamanla ölçülməz və bu meyarlar bütün hallarda qurunmalıdır; məsələn, sədaqət yerinə sədaqətsizlik, riyakarlıq; təvazökarlıq yerinə təkəbbürlük; əhdə vəfa etmək yerinə əhdi pozaq; əmanətli olmaq yerinə əmanətə xəyanət etmək;

ədalətli, insaflı, vicdanlı olduğumuz halda ədalətsiz, insafsız və vicdan prinsiplərinə əməl etməmək kimi əməllərə yol verilərsə, belə olan halda ictimaiyyət nəinki zərər görəcək, hətta məhv olmağa doğru gedəcək. Təbii ki, qeyd olunan əməllər təkcə əxlaq baxımından deyil, həm də hüquq normalarına əsasən qəbul edilməzdir; digər tərəfdən, hər hansı bir normanın yaranması müqavilə ilə deyil, çünki müqavilə ilə yaranan müəyyən bir məsələni müqavilə yolu ilə də dəyişmək ya əvəz etmək olar; məsələn, sosial adətlər kimi. Amma müqavilə yolu ilə mövcud olmayan xüsusiyyətləri (əxlaqla bağlı olan meyarlar) heç bir müqavilə ilə əvəz etmək olmaz; daha aydın desək, əxlaq meyarları insanlar arasında müqavilə ilə deyil, bəlkə insanın təbiəti ilə bağlı olan zati bir əməldir, yəni bu meyarlar (əxlaq normaları) yaradılışla bağlıdır nəinki adət-ənənə və mərasimlərlə. Adət-ənənə və əxlaq dəyərləri (meyarlar) arasında fərqin olmasına baxmayaraq, bunların bütün zamanlarda yerinə yetirilməsi vacibdir, çünki həm adət-ənənə və həm də əxlaq meyarları ictimai məsələlərlə bağlılığı vardır.

Nəticə olaraq demək olar ki, bunların arasında olan nisbətə və fərqli cəhətlərə baxdıqda şahidi oluruq ki, adət-ənənə ictimai davranışlarla tam olmasa da bir çox hallarda bağlılıq təşkil edir, ancaq əxlaq ictimai davranış və digər məsələlərlə bağlı olsa da bunlardan asılı deyil. Buna baxmayaraq, biz insan olaraq bəzi məsələləri öhdəmizə götürürük və bunun üçün məsuliyyət daşıyırıq; məsələn, valideynlə, həyat yoldaşı ilə dostla, müəllimlə, çalışdığımız sahədə həmkarlarla, üzv olduğumuz hər hansı bir qurumda və digər sahələrdə ünsiyyətdə olduğumuz zaman adət-ənənə özünü daha çox göstərir. Amma qeyd olunduğu kimi əxlaq meyarları sosial məsələlərdən asılı deyil, çünki əxlaq ümumi normalar məcmuəsidir; dürüstlük, təvazökarlıq və digər fəzilətlər insanların məsuliyyət hissi ilə bağlı deyil, bəlkə insanın öz istəyi ilə yerinə yetiriləcək bir əməldir. Təbii ki, həm adət-ənənə həm də əxlaq normaları insanın iradəsi ilə yerinə yetirilir, amma biri (əxlaq) daxili duyğularla bağlıdır və digəri isə (adət-ənənə) sosial tələblərdən irəli gəlir. Adət-ənənə və əxlaq normaları arasında fərqli aspektlərlə yanaşı, adət-ənənə arasında da oxşar və fərqli cəhətlər mövcuddur. Yaxşı olar ki, diqqəti aşağıdakı mövzuya yönəldək.

***Adət və ənənənin oxşar və fərqli cəhətləri:*** Mövzunu təhlil edərkən adət-ənənə arasında bəzi oxşar və fərqli cəhətlərlə qarşılaşırıq; yəni adət-ənənənin uyğunluğu olduğu kimi fərqli tərəfləri də mövcuddur. Bunların arasında daha çox *mənəvi fərqin* olduğu nəzərə çarpır; ənənə bütün hallarda (zəruri şərtləri çıxmaqla) adətlə bağlıdır. Burada adət dedikdə, təkcə sosial vərdişlər deyil, həm də qaydalar nəzərdə tutulur. Ancaq ənənə, ümumi məfhum olaraq təqdim olunur: "ənənə, adətdən fərqli olaraq daha geniş və ümumi xarakter daşıyır, çünki ənənə təbii amillərdən və fərdi vərdişlərdən yaranır" (16. c. 1, s. 841). Əksər hallarda, müəyyən bir mühitdə ənənə zaman keçdikcə hər hansı bir qaydanı yaradır və həmin qayda tədricən inkişaf edərək adətə, ənənəyə çevrilir. Məhz buna görə də adət bir çox hallarda həm qayda, həm də vərdiş – ənənə olaraq göstərilir. Adət-ənənə arasında olan fərqi bir az da dərindən araşdırsaq görərik ki, bunların arasında iki mühüm fərq mövcuddur: adətdən fərqli olaraq ənənədə təkrarlama halları mövcuddur və fərdə məxsusdur, amma adət təkcə fərdlə deyil, daha çox toplu ilə əlaqədardır, həmçinin bunların (adət-ənənə) arasındakı əlaqə mütləq olaraq ümumi və xüsusidir. Ancaq bəzi müəlliflərin gəldiyi nəticə bundan ibarətdir ki, ənənə təkcə fərdə deyil, həm də topluya aiddir; yəni həm fərdə, həm də topluya şamil olunur (1. s. 145). Ənənədən fərqli olaraq adət də vəzifə və öhdəçilik qapalıdır, yəni açıq-aşkar özünü göstərmir və proses əsnasında yerinə yetirilir. Təbii ki, adət-ənənənin oxşar və fərqli olmasına baxmayaraq, bunların hər ikisi hüquq və əxlaq normaları arasında olan nisbətin, həmçinin vətəndaş hüququnun formalaşmasında əsas mənbələrdən hesab olunur. Bəs vətəndaş hüququnun formalaşmasında adət-ənənənin rolu nədən ibarətdir? Biz çalışmışıq aşağıdakı paraqrafda bu suala cavab verək.

## Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin rolu

Hüquq mənbələrinə istinad edərək vətəndaş hüququnun formalaşmasında adət-ənənənin rolundan, hansı üstünlüklərə malik olduğundan bəhs etmək olduqca zəruridir. Çünki bütün hüquq normaları insanın təhlükəsizliyi, inkişafı,

təkmilləşməsi, ictimai-siyasi, mədəni haqlarını tanıması, həm şəxsi, həm də ictimai həyatda layiqli bir vətəndaş kimi yaşaması üçündür. Məhz bu mənada, vətəndaş hüququnun formalaşmasında adət-ənənənin rolunu filosofların və hüquqşünas filosofların əsərlərinə istinad etməklə araşdırmaq yerinə düşərdi. Ümumiyyətlə, "vətəndaş" elə bir məfhumdur ki, təkcə fəlsəfə və hüquqla məhdudlaşa bilməz. Bu, mühüm bir məfhum olaraq müxtəlif ölkələrdə yaşmaqla mədəniyyətlər yaradır və yaradılan mədəniyyətlər, qarşılıqlı əlaqələr genişlənir və böyük bir topluya çevrilir. Vətəndaş o şəxsə deyilir ki, fərdə və topluya aid olan haqları tanısın və bu haqları tanımaqla yanaşı müdafiə edərək qanuna əməl etsin. Ancaq vətəndaş hüququna gəldikdə isə, vətəndaşlıq hüququ müəyyən bir ölkənin vətəndaşlıq münasibətlərinə görə qanunla verilən, qorunan və müdafiə olunan hər bir ölkənin konstitusiyasında təsbit edilmişdir. Vətəndaş hüququ vətəndaşların dövlət qarşısında vəzifə və məsuliyyətlərini nəzərə almaqla yanaşı geniş sosial, siyasi, iqtisadi və mədəni haqları əhatə edir; vətəndaşlıq siyasi quruluşun yaranmasından sonra gələn hüquqi bir statusdur, çünki vətəndaşlıq insanla birlikdə doğulmur, vətəndaşlıq cəmiyyətdə fərdə dəyərli bir haqq olaraq verilir. Bu baxımdan fərdin olduğu məkan (vətən, ölkə, şəhər) bir qrup insanın kollektiv və məqsədyönlü həyatını əhatə edir. Bir çox hallarda vətəndaş vətəni *ana* adlandırır, vətənin ana adlandırlmasından əsas məqsəd kollektiv rifaha, səadətə nail olmaq, bir-birinin haqlarına hörmət edərkən ictimai mənafeyi qorumaqdır. Vətəndaşın həm hüquqi, həm də ictimai məsuliyyəti vardır; əgər vətəndaş sözünü məfhum olaraq təhlil etsək məlum olar ki, bir tərəfdən insanların sosial mühitdə qarşılıqlı münasibətlərinə aiddir, digər tərəfdən isə, bu hüquqlar digər hüquqlarla birlikdə təsirə malikdir. Vətəndaş məfhumu vətəndaşlıq hüquqları da daxil olmaqla hər bir şəxsin hüquq, vəzifə və öhdəliklərinin məcmusuna aiddir. Çünki vətəndaşı tanımağın səbəblərindən biri də vətəndaş hüquqlarının yaranması və cəmiyyətdə yaşayan hər bir fərdin azadlıqlarının qorunması və təmin olunmasıdır. Mənbədə də qeyd olunduğu kimi başqalarının azadlıqlarına zərər verməmək şərti ilə, vətəndaşın hüquqları da daxil olmaqla (hüquqla birlikdə) vəzifə və öhdəliklərin qarşıya qoyulması zəruridir (2. s. 20). Buna görə də vətəndaşlıq hüquqları hər bir ölkənin coğrafi sərhədləri daxilində tərif və müəyyən oluna bilər. Ona görə ki, burada milli dəyərlər mövcuddur; milli dəyərlər dedikdə, cəmiyyətin mədəniyyəti, adət-ənənələridir ki, vətəndaş hüququnun formalaşmasında, daha parlaq və inkişaflı olmasında, hətta dəyişməsində hədsiz təsirə malikdir.

Buradan belə bir nəticəyə gəlmək olar ki, vətəndaşlıq cəmiyyətdə insana verilən bir haqq və yüksək imtiyazdır. Burada əsas məqsəd kollektiv rifaha nail olmaq, bir-birinin hüquqlarına hörmət və riayət edərək ictimai mənafeyi qorumaqdır. Vətəndaşlıq dedikdə, yəni bu adi bir imtiyaz deyil, vətəndaşlıq həm də müxtəlif iqtisadi, sosial, mədəni və siyasi aspektlərə malikdir. Vətəndaşlıq hüququnun bütövlüyü hökumətin iradəsindən və onu insanlara vermək istəyindən irəli gəlmir, vətəndaşlar onlara mənsub olan haqlardan istifadə etməklə hökumət rəhbərlərini seçir, bunun da nəticəsində adət-ənənə əsasında haqq və səlahiyyətə malik olurlar. Adət-ənənənin vətəndaş hüququ qarşısında iki əsas cəhəti mövcuddur: bunlardan biri müsbət (qəbul olunan) və digəri isə mənfi (nəzərə alınmayan) tərəfidir ki, vətəndaş hüququnda hədsiz təsirə malikdir. Burada müsbət cəhət dedikdə, təbii ki, bəzi haqların qəbulu və təsdiq olunmasıdır; amma mənfi və ya nəzərə alınmayan cəhət dedikdə isə, bəzi ictimai azadlıqlara riayət olunmaması, hətta aradan götürülməsi, həmçinin insanların arzu və tələb etdikləri dəyərlərə qarşı əks mövqedə dayanmaq, əleyhinə olmaq kimi qərarlar vətəndaşların hüquqlarının əldə edilməməsi və ya təhlükəyə atılması ilə nəticələnir. Bunun da əsas səbəbi cəmiyyətin müxtəlif sahələrində adət-ənənəyə, onun ictimai prinsiplərinə, inkişafına və təsirlərinə diqqətin olmamasıdır. Buna görə də, adət-ənənə vətəndaş hüququnun əsası hesab olunur və bəzi hallarda yeni qanunlar yaratmaqla üstünlük təşkil edir.

***Vətəndaş hüququ və adət-ənənə arasındakı əlaqənin əsas xüsusiyyətləri:*** Vətəndaş hüququ və adət-ənənə arasındakı əlaqəni araşdırarkən qeyd etmək lazımdır ki, adət-ənənəyə xas iki əsas cəhət mövcuddur ki, bunlardan biri *dəyərləndirmə qaydasıdır,* digəri isə *zəruri əməl və hərəkətdir*. Bu qaydalar ictimaiyyət üzvləri tərəfindən təsdiq olunmuşdur. Məhz buna görə də adət-ənənə ictimai vəzifələrlə sıx

bağlılığı vardır, həmçinin cəmiyyətdəki hərəkətləri iki formada idarə edir və istiqamətləndirir: birincisi, daxili yanaşma – şəxsiyyət baxımından (fərd); ikincisi, sosial sistemdə institutlaşma baxımından (cəmiyyət). Burada mühüm bir məsələyə diqqət etmək zəruridir; adətlər sosial ehtiyaclardan yaranır, zaman keçdikcə insanların agahlıq, məlumatlanmaq səviyyəsi yüksəlir, ehtiyaclar genişlənir və yeni formalar alır. Əgər vətəndaşlıq məfhumuna tarixi nəzər salsaq görərik ki, ilk nəslin vətəndaş hüquqları insanların mədəni-siyasi ehtiyaclarının bir funksiyası olmuşdur. Məhz ictimai anlayışın genişlənməsi, insan düşüncəsinin təkamülü nəticəsində iqtisadi, sosial, mədəni və fərdi hüquqların gələcək nəsilləri formalaşmışdır. Təbii olaraq ehtiyacların dəyişməsi nəticəsində sözügedən normalar da dəyişikliyə uğramış, cəmiyyətdə fərqli adət-ənənələr meydana çıxmışdır. Bəzi adət-ənənələr keçmişin tələbləri ilə ziddiyyət təşkil etsə də, digər bir qrup mövcud adət-ənənəni qəbul etmiş, ona doğru irəliləmişdir, nəticədə adət-ənənədə baş verən inkişaf prosesi – qanunların formalaşması, anlaşılması və hətta dəyişməsi vətəndaş cəmiyyətində təsirli komponentlərindən biri olmuşdur. Vətəndaş hüququnun formalaşmasında adət-ənənə bəzən müsbət qarşılansa da, bəzi hallarda nəzərə alınmır. Buna səbəb nədir? Bu suala cavab verməzdən əvvəl yaxşı olar ki, vətəndaş hüququnun formalaşmasında adət-ənənənin müsbət təsirinə diqqət edək.

***Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin müsbət təsiri:*** Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin müsbət təsiri dedikdə, məqsəd vətəndaş hüququnun formalaşması, genişlənməsi, ən əsası isə inkişaf prosesi nəzərdə tutulur. Diqqət etmək lazımdır ki, bəzən qanunlar insanların tələb və ehtiyaclarını əvvəlcədən müəyyənləşdirə bilmir, belə olan halda adət-ənənə qanunların köməyinə gəlir və əsas işi də bundan ibarət olur ki, qanunlarda olan qüsurları aradan qaldırsın: izah (şərh) etsin, təkmilləşdirsin, nəzarət etsin, yeri gələndə dəyişikliklər etsin, bəzən isə mənsub olduğu qaydalara əsasən hətta qanunlara yiyələnməyə səbəb olsun. Bu, rasional mənşədən yaranan və cəmiyyətin tələblərinə əsaslanaraq yayılmış, davam etmiş, düzgün və düşünülmüş adət-ənənədir (8. s. 173). Ancaq nəzərə almaq lazımdır ki, hər bir cəmiyyətdə rasional adət-ənənənin sosial, hüquqi və qanuni şüurun inkişaf prosesi ilə bağlılığı vardır, çünki ictimai inkişaf və proses nəticəsində zaman və məkana görə nə vaxtsa bu adət-ənənələrə ehtiyac olmadıqda bunlar başqa bir adət-ənənə ilə əvəz olunur. Buna misal olaraq, məlum olduğu kimi Amerikada qadınların ictimaiyyətdə, onların sosial sahələrdə fəal iştirakına ehtiyacın olması ilə bağlı ənənəvi baxış dəyişdi. Nəhayət, 1910-cu ildə Amerikalı qadınlar ictimai səs topladılar; bu o deməkdir ki, adət-ənənəyə dəyişiklik etdilər. 1920-ci ildə Wilsonun rəhbərliyi ilə Konstitusiyada dəyişikliyin zəruri olmasını Senata gətirdilər və qanunda dəyişiklik edərək səy göstərirdilər ki, kişilərlə bərabər səsvermə hüququna nail olsunlar. Təbii ki, bu təkcə ictimai-siyasi bir dönüş deyil, həm də zaman və məkanın tələb etdiyi bir prosesdir ki, adət-ənənəyə də öz təsirini göstərdi. İndi isə qeyd oluna suala (vətəndaş hüququnun formalaşmasında adət-ənənə bəzən müsbət qarşılansa da, bəzi hallarda nəzərə alınmır. Buna səbəb nədir?) diqqəti yönəldək.

***Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin nəzərə alınmaması:*** Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin nəzərə alınmaması dedikdə, yəni cəmiyyət üzvlərinin hamısı və ya bir hissəsi üçün vətəndaş hüququnun həyata keçirilməsinin və inkişafının qarşısını almaq nəzərdə tutulur. Belə bir vəziyyətdə arzu və tələb olunmayan adət və normalarla, tələb olunan hüquq və dəyərlərin inkişafı arasında ziddiyyətlər yaranır. Buna misal olaraq Fransa İnqilabının əsas sənədlərindən biri olan İnsan və Vətəndaş Haqqları Bəyannaməsində qadın və kölə hüquqları qeyd edilməmişdir. Bu Bəyannamədə qadın və kölə hüquqlarının qeyd olunmaması ictimai adətlərə və qadın hüquqlarına diqqətsizlikdən irəli gəlir. Belə bir diqqətsizlik qanunların yaranmasına və formalaşmasına təsirin bir nümunəsidir, digər tərəfdən isə vətəndaş hüququnun formalaşmasında adət-ənənənin nəzərə alınmamasıdır.

**Nəticə**

Səhih mənbələrə əsasən adət-ənənənin rolunu fəlsəfi və hüquqi aspektdə təhlil edərkən buradan belə nəticəyə gəlmək olar ki, etik normalar qanunlara təsir etmək və onları tənzimləməklə yanaşı həm də adət-ənənədə özünü gös-

tərir. Çünki adət-ənəndə düzgün və qaydaya əsaslanmış adətlər məhz əxlaq prinsiplərinə əsaslanır. Bu onu göstərir ki, əxlaq bütün əməllərimizə sirayət edir. Hüququn mənbəyi olan adət-ənənə ümumi, daimi olaraq yazılmamış qaydalardır ki, müstəqil olaraq insanların iradəsindən yaranır və bunun yaranmasında dövlətin heç bir fəaliyyət funksiyası mövcud deyil. Adət-ənənə ümumi və daimi olmaqdan əlavə, həm də xüsusi, şifahi (sözdə) və əməli (parktikada) hissələrə bölünür. Adətə əsasən hüquqi sistemləri (Common law) olan ölkələrdə adət-ənənə hüququn ilk mənbəyi hesab olunur, ancaq yazılı hüquq sistemlərində isə (Roman-German) qanundan sonra gəlir, yəni adət və ənənə qanundan sonra hüququn mənbəyi hesab olunur. Əlbəttə, hüququn bəzi şöbələrində (xüsusi hüquq) adət-ənənənin rolu daha geniş, bəzi şöbələrdə  isə (cinayət hüququ) rolu daha məhduddur; əgər qanun birbaşa adət-ənənəyə istinad edirsə, belə olan halda adət-ənənənin təsiri tam özünü göstərir, ancaq qanun adət-ənənəyə istinad etmirsə, adət-ənənə məhkəmə qanunlarına zidd olmadığı təqdirdə hərəkət meyarı olacaqdır. Ümumi adət-ənənələr hökm və qərarlara aid olaraq işlənməsi, sübuta yetirilməsi məhkəmə prosesi ilə bağlıdır, amma xüsusi adət-ənənəyə gəldikdə isə, bu bir mövqe məsələsidir ki, onun sübutu qarşı tərəflərin (iddiaçıların) üzərindədir. Digər mühüm məsələ də bundan ibarətdir ki, adət-ənənəni hüquq normaların yaranmasında çox təsir göstərən bir qüvvə, mühüm bir mənbə hesab etmək olar, başqa sözlə desək, adət-ənənə müxtəlif illərdə və əsrlərdə insanların özləri tərəfindən cəmiyyətdə təbii olaraq yaranan yazılmamış sosial qanunlardır. Bu sosial qanunlardan əsas məqsəd ictimai münasibətləri gücləndirmək və inkişaf etdirməkdir. Əslində adət-ənənələr sosial ehtiyacların aynası, ictimai iradənin əsas formasıdır ki, zamanın və məkanın tələblərinə görə dəyişir; ictimai davranışlar əsas iki amilin təsiri altındadır: daxili amil – insanın hər hansı bir fikrə və ya məsələyə yanaşma tərzi, digəri isə xarici amil (zehindən kənar) ya normalardır ki, (adət, ənənə, qanun və qərar) cəmiyyət şüurlu şəkildə qanunvericilik mexanizmləri vasitəsilə bunları yaradır. Məhz buna görə də adət-ənənəni ədalətin, fitrətin, ağılın qoruyucusu, həmçinin dövlət rəhbərlərinin ictimai haqlara və azadlıqlara ədalətsiz münasibətlərinin qarşısını alan ən təsirli vasitələrdən biri hesab etmək olar. Belə bir vəziyyətdə etik norma və dəyərlər tədricən hakimiyyətin bütün strukturlarına nüfuz etdi, hətta məhkəməyə, qanunverici orqanlara, siyasi proseslərə təsirini göstərdi və bunun da nəticəsində vətəndaş hüququnun təmin edilməsi üçün əlverişli şərait yarandı.

**Ədəbiyyat**


1. Abdulvahhab Xilaf. İslam qanunvericiliyi. Küveyt: Ərəb Araşdırmaları İnstitutu, 2019, 160 s.
2. Arzu Rzayipur. Vətəndaşlıq hüququ. Tehran: Aryan, h.ş. 1385/2006 m., 288 s.
3. Cəlaləddin Mədəni. Məhkəmə proseduru. Tehran: Paydar, h.ş. 1387/2008, 164 s.
4. Eyni Möhsün, Əlburzi Məsud, Mulki Əmin. Həyat və qanunvericiliyin inkişafında dəyərlər. Rüblük jurnal: Fiqh və İslam hüququ üzrə araşdırmalar, c. 9, say 33, h.ş 1392/2013 m., s. 90-120.
5. Əli Paşa Saleh. Hüququn tarixi barədə mövzular. Tehran: Tehran Universiteti, h.ş. 1391/2012 m., 942 s.
6. Ələvi, Seyid Məhəmməd Tağı. İranın fiqh və hüququnda adət-ənənə haqqında düşüncələr. Tehran: Ədəbiyyat və Humanitar Elmləri Universiteti, h.ş. 1381/2002 m., 135-168 s.
7. Əli Şayqan. Mülki hüquq. Tehran: Taha, h.ş. 1375/1996 m., 288 s.
8. Fatimə Ərəb Əhmədi və Əhmədrza Xəzai. Vətəndaşlıq hüququnda adət-ənənənin yeri. İslam Hüquq Araşdırmaları Jurnalı, c. 16, № 59, h.ş. 1399/2020 m., 159-177 s.
9. İbn Nəcim. Əbu Hənifə ən-Numan məzhəbində oxşarlıqlar və baxışlar. Misir: Əl-Tövfiqiyyə Kitabxanası, Elmi Kitab Evi, h.q. 1419/1999 m., 392 s.
10. Mazeaud L, Jean et Chabas Francois; par Chabas François. Leçons de droit civil, İntroduction a l'etudedu droit, t 1, v.1, 12 ed, Paris : Montchrestien , 2000,  650 p.
11. Mahmud İrfani. Müasir hüquq sistemlərinin müqayisəli təhlili. Tehran: Cəngəl, h.ş. 1389/2010 m., 312 s.

12. Məlikova M. Nəbiyev E. Xarici ölkələrin dövlət və hüquq tarixi. Bakı: Elm və həyat, 2005, 464 s.
13. Məhəmməd Moin. Lüğət kitabı. Tehran: Zərrin, h.ş. 1386/2017 m., 1832 s.
14. Məhəmməd Cəfər Ləngərudi. Hüquq elminin ümumi başlanğıcı. Tehran: Gənc-e-daneş, h.ş. 1383/2004 m., 296 s.
15. Musa Cavan. Hüququn əsasları. Birinci cild. Tehran: Rəngin çap şirkəti, h.ş. 1327/1948 m., 376 s.
16. Mustafa Əhməd Əz-Zərqa. Ümumi hüququn başlanğıcı. Birinci cild. Dəməşq: Darul-qələm, h.q. 1425/2004 m., 1160 s.
17. Mehdi Kinya. Beynəlxalq ictimai hüququn başlanğıcı. Tehran: Tehran Universiteti, h.ş. 1340/1961 m., 257 s.
18. Nasir Katuzian. Hüquq elminə giriş və İranın hüquq sisteminin öyrənilməsi. Tehran: Nəşriyyat şirkəti, h.ş. 1377/1998 m., 397 s.
19. Nasir Katuzian. Hüququn fəlsəfəsi: hüququn tərifi və mahiyyəti. Tehran: Nəşriyyat şirkəti, c. 1 və 2, h.ş. 1388/2009 m., 706 s.
20. Seyid Məhəmmədhüseyn Təbatəbai. Əl-Mizan.Tehran: Cameye-Mudərrisin, h.ş. 1376/1997 m., c. 8, 622 s.
21. Şarl Lui Monteskyö. Qanunların ruhu. Fars dilinə tərcümə edən: Əli Əkbər Muhtədi. Tehran: Əmir Kəbir, h.ş. 1392/2013 m., 708 s.

## Резюме

**Антига Пашаева**

### Этика и право: философско-правовой взгляд на этическую функцию обычаев и традиций в правовых источниках

Обычаи и традиции, являющиеся одним из источников права, возникают из воли человека как неписаное правило, и поэтому делятся на общую и особенную часть. Общие обычаи связаны с решениями и приговорами, а система их действия связана с судебным процессом, особенные же обычаи связаны с позицией гражданина. Что касается общественных принципов обычаев и традиции, по мнению философов и философов-правоведов, источник права состоит из двух частей, одна из которых – право, а другая – обычаи и традиции. Обычаи и традиции применяются ко всем источникам права, кроме закона, и признаются частью судебной деятельности; с другой стороны, обычаи и традиции считаются так называемой юридической нормой даже без вмешательства законодательного органа, поскольку она также включает в себя, помимо судебной процедуры и правил, другие источники права. Обычаи и традиции играют важную роль в создании законов, они являются своего рода основой создания законов. Даже некоторые законы представляют собой обычаи и традиции, которые законодательный орган подготавливает и приводит в определенный порядок с течением времени. Что касается связи между гражданским правом и традициями, то здесь присутствуют два основных аспекта, специфичных для обычаев и традиций, один из которых – *правило оценки,* а другой – *необходимое деяние и действие*. Эти правила утверждаются представителями общественности и поэтому обычаи и традиции тесно связаны с общественными обязанностями.

В настоящей статье в сравнительном аспекте изучены не только правовые и этические аспекты обычаев и традиций, ссылаясь на авторитетные работы философов и философов права, но также его функции и задачи в обществе.

***Ключевые слова:*** право, этика, обычаи и традиции, закон, мораль, гражданское право, общество.

**Summary**

**Antiga Pashayeva**

**Ethics and Right: A Philosophical and legal view of the ethical function of custom and tradition in legal sources**

Custom and tradition, which is one of the sources of law, arises from the will of a person as an unwritten rule, and therefore it is divided into a general and a special part. General customs are related to decisions and judgments and its system of operation is related to the judicial process, but special customs are related to the position of the citizen. As for the social principles of custom and tradition, according to phil osophers and legal philosophers, the source of law consists of two parts, one of which is law and the other is custom. Custom and tradition applies to all sources of law other than law and is considered part of judicial activity; on the other hand, custom and tradition are considered a legal rule even without legislative intervention, because it includes other sources of law in addition to judicial procedure and rules. Custom and tradition plays a major role in the creation of laws, it is a kind of foundation for the creation of laws. Even some laws are traditions that the legislative body prepares and regulates them over time. As for the relationship between civil law and custom, there are two main aspects specific to custom, one of which is the *rule of evaluation*, and the other is a *necessary act and action.* These rules are approved by members of the public and therefore custom and tradition are closely related to public duties.

In the present article, referring to the authoritative works of philosophers and legal philosophers, not only the legal and ethical aspects of custom and tradition, but also the function and duties in the society have been studied in a comparative aspect.

***Keywords:*** Right, Ethics, Custom and Tradition, Law, Morality, Civil Rights, Society.